**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Ü.HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SEVİNC SƏRDAR QIZI ƏLİYEVA**

# MUSİQİ KURİKULUMU ƏSASINDA SİNİF MÜƏLLİMLƏRİNİN HAZIRLIĞININ YÜKSƏLDİLMƏSİ ÜZRƏ İŞİN SİSTEMİ

5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(Musiqi tədrisi metodikası)

pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Dissertasiya işi
Azərbaycan Milli Konservatoriyasında yerinə yetirilmişdir.

**Елми рящбяр:** **Oqtay Məmmədağa oğlu Rəcəbov**
*Azərbaycan Respublikasının Əməkdar müəllimi, Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Minarə Rəhim qızı Dadaşova**
*pedaqoji elmlər doktoru, professor*

**İradə Ağali qızı Məmmədova**
*pedaqoji elmlər namizədi*

**Апарыъы тяшкилат:** Азярбайъан Müəllimlər İnstitutunun "İbtidai və məktəbəqədər təhsilin metodikası" кафедрасы

Мцдафия_21/06_______2013-ъц илдя саат_______ Ц.Щаъыбяйли адына Бакы Мусиги Академийасынын няздиндя йарадылмыш Ф/Д 02.151 Диссертасийа Шурасынын иъласында кечириляъякдир.

Цнван: АЗ 1014, Бакы шящяри, Ш.Бядялбяйли küç., 98

Диссертасийа иля Ц.Щаъыбяйли адына Бакы Мусиги Академийасынын китабханасында таныш олмаг олар.

Автореферат «___» _____ 2013-cц илдя эюндярилмишдир.

Диссертасийа Шурасынын елми катиби,
сянятшцнаслыг üzrə fəlsəfə doktoru: **H.V. Məmmədova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanda sivil, dünyəvi dövlət quruculuğunun əsas şərtlərindən biri təhsilin bu gün necə qurulacağından, milli və bəşəri dəyərlərdən necə yararlanacağından, təhsil sisteminin necə inkişafından çox asılıdır. Təhsil konsepsiyasının dövlət siyasətinin son məqsədi dərin və hərtərəfli biliyə, mədəniyyətə malik, xalqımızın soykökünə, demokratiya və milli müstəqillik ideyalarına sədaqətli, Vətənini, millətini sevən əsl Azərbaycan vətənpərvərini yetişdirmək olmalıdır. Buna nail olmaq üçün, ilk növbədə, təhsilin, tərbiyənin məzmunca milli və ümumbəşəri dəyərlər əsasında yeniləşdirilməsinə, proqram, dərslik və dərs vəsaitinin yaradılmasına nail olmaq lazımdır.

Məktəb təhsilinin vahidliyi problemi son illər dəfələrlə qaldırılmışdır. Biz təhsil qarşısında yeni tələblər qoyan bir dövrdə yaşayırıq. Yaradıcılıq əsasının daşıyıcısı, ilk növbədə, müəllimin özü olmalıdır. XXI əsr üçün təhsil məna kəsb edən əsas kimi etik dominanta malik olmalıdır. O, yaradıcı və yenilikçi xarakter daşımalıdır. Müasir sosial-mədəni problemlər şagirdləri planetlər və kosmik səviyyədə geniş düşünməyi öyrətmək kimi tələblər irəli sürür. Buna uşaq təsəvvüründə hər bir fənn üzrə lokal bilikləri dünyanın geniş və tam şəkli ilə birləşdirildikdə nail olmaq mümkündür.

Azərbaycan Respublikası dövlətinin milli təhsilimiz haqqında son qərarlarında yetişməkdə olan nəslin estetik tərbiyəsinə xüsusi diqqət yetirilir, qarşıya mühüm, təxirəsalınmaz vəzifələr qoyulur.

Ümumtəhsil məktəblərində estetik tərbiyənin həyata keçirilməsinin əsas yollarından biri də musiqi məşğələləridir. Musiqi özünün spesifik cəhətləri ilə məktəblilərin dünyagörüşünün, bədii zövqlərinin formalaşmasına, gözəllik hissinin tərbiyəsinə qüvvətli təsir göstərir və eyni zamanda uşaqlarda mənəvi keyfiyyətlər tərbiyə edir, onları əməyə və mübarizəyə ruhlandırır.

Musiqinin təlim-tərbiyə prosesinə, istər ümumtəhsil məktəblərdə şagirdlərin, istərsə pedaqoji təmayüllü orta ixtisas məktəblərdə müəllim hazırlığı üzrə prosesinə daha geniş daxil olmasına xüsusi fikir verilir.

Müasir dövrdə «Musiqi» fənninin ümumtəhsil məktəblərində tədrisinin vəziyyətinin öyrənilməsinin nəticəsi göstərir ki, respublikamızın bir sıra məktəblərində bu fənni yaradıcı surətdə tədris edən müəllimlər heç də az deyildir. Onlar «Musiqi» fənninin sirlərini, fənlə əlaqədar bilik, bacarıq

və vərdişləri kifayət dərəcədə məktəblilərə aşılaya bilərlər. Lakin, təəssüflər olsun ki, respublikamızda belə müəllimlərin sayı kifayət qədər deyildir. Çox sayda məktəblərdə, xüsusilə də ibtidai siniflərdə «Musiqi» fənninin tədrisi müasir dövrün tələblərinə uyğun gəlmir və şagirdlərin bu fənlə əlaqədar qazandıqları bilik, bacarıq və vərdişlər o qədər də ürək açan deyildir. Bunun əsas səbəbi ümumtəhsil məktəblərində, o cümlədən ibtidai siniflərdə bu fənni tədris edən müəllimlərin hazırlıq dərəcəsinin də verilən tələblərə uyğun gəlməməsidir. Bu isə ondan irəli gəlir ki, pedaqoji təmayüllü orta ixtisas məktəblərinin ibtidai sinif müəllimləri hazırlayan fakültələrində tələbələrə musiqiyə dair nəzəri məlumatlar verilsə də, bu biliklərin praktikada tətbiqinə bir o qədər də diqqət yetirilmir.

Musiqi müəllimlərinin kütləvi surətdə çatışmayan cəhətləri bizdə orta ixtisas və ali məktəblərdə ibtidai sinif müəllimləri hazırlayan fakültələrdə oxuyan tələbələrin adı çəkilən fənlə əlaqədar professional hazırlıqlarını elmi səviyyədə öyrənmək arzusu yaratdı. Adı çəkilən fakültələrdə oxuyan tələbələrin musiqi ilə əlaqədar bilik, bacarıq və vərdişlərinin səviyyələrinin öyrənilməsi göstərdi ki, onların arasında adı qeyd olunan fənnə maraq göstərənlər həqiqətən vardır. Lakin onlarla bərabər "Musiqi" fənninə maraq göstərməyənlər bu sahədə cüzi şəkildə bilik, bacarıq və vərdişlərə malik olanlar da heç az deyildir. Eyni zamanda tələbələr tədris aldıqları müddətdə də "Musiqi" fənninə ayrılan saatların miqdarı və tədris semestrlərinin azlığı da bu sahədə tələbələrin professional hazırlıqları sahəsində böyük nailiyyətlər əldə etməyə imkan yaratmır. Yəni bu fakültə tələbələrinin əksəriyyətinin heç olmasa 7 illik musiqi məktəb təhsilləri olmadığından, onlar oxuduqları müddətdə “Musiqi” fənni ilə əlaqədar, bilik, bacarıq və vərdişlərə yiyələnə bilmirlər. Bu isə tələbələrin "Musiqi" fənni tədris edə biləcək bir professional müəllim kimi formalaşmasına mənfi təsir göstərir.

İbtidai sinif müəllimi, o cümlədən "Musiqi" müəllimi hazırlığı ilə əlaqədar respublikamızda akademik M.Mehdizadə, professorlardan Y.Kərimov, B.Bəşirov, A.Kazımov, O.Rəcəbov, V.Xəlilov, F.Sadıqov, S.Quliyev, S.Əsgərova, M.Dadaşova, İ.Qədimova, Rusiyada D.Kabalevski, E.Abdullin, Y.Əliyev, R.Kayurova, P.Straxov, B.Bayev, A.Kovalyov və digərləri müxtəlif dövrlərdə elmi axtarışlar aparmışlar.

Adı çəkilən alim-pedaqoqların əksəriyyətinin tədqiqatlarında məktəbdə, o cümlədən ibtidai siniflərdə şagirdlərin musiqi tərbiyəsi və təliminin də müxtəlif cəhətləri öyrənilsə də, bilavasitə müəllim hazırlığı probleminə toxunulmamışdır. Bu tədqiqatçılar arasında S.Əsgərova və

M.Dadaşova pedaqoji təmayüllü ali məktəblərində müəllim hazırlığının müəyyən cəhətlərinə toxunarlarsa da, problemə hərtərəfli münasibət kifayət qədər göstərilməmişdir. Digər tərəfdən onların tədqiqatlarının hazır olduğu dövrdə "Musiqi kurikulumu" hələ hazır olmadığından bu fənnə olan müasir tələblər, prinsiplər qeyd olunan tədqiqatçıların dissertasiyalarında öz əksini tapa bilməmişdir.

Problemin vəziyyətini, elmi-pedaqoji-metodik ədəbiyyatın azlığını və musiqini xüsusilə ibtidai siniflərdə tədris edən müəllimlərin təkmilləşdirilməsinin vacibliyini nəzərə alaraq “Musiqi kurikulumu əsasında sinif müəllimlərinin hazırlığının yüksəldilməsi üzrə işin sistemi” mövzusunda tədqiqat aparmaq qərarına gəldik.

**Tədqiqatın məqsədi.** ibtidai siniflərdə "Musiqi" fənnini tədris edəcək tələbələrin professional hazırlığının təkmilləşdirilməsinin yollarının didaktik əsaslarını kompleks şəkildə tədqiq etməkdir. Eyni zamanda, adı çəkilən fənnin vəzifələrinin, didaktik prinsiplərinin, təlim vasitələrinin xüsusiyyətlərinin, fərdi və kollektiv işin formalarını və metodlarının didaktik əsaslarının təyini tədqiqatın məqsədinin tərkib hissəsini təşkil edir.

**Tədqiqatın obyekti.** "Musiqi" fənnini ibtidai siniflərdə tədris edəcək müəllim hazırlığı prosesidir.

**Tədqiqatın predmeti.** ibtidai sinif müəllimləri hazırlayan fakültə tələbələrinin bilik, bacarıq və professional maraqlarına müsbət təsir edən metod, vasitə, üsulları aşkarlamaq, yəni "Musiqi" fənnini gələcəkdə tədris edənlərin hazırlıq səviyyəsini artırmaqdır.

**Tədqiqatın fərziyyəsi**. Pedaqoji təmayüllü orta ixtisas məktəblərində "Musiqi" fənninin tədrisində psixoloji-pedaqoji və metodik tələblərə düzgün riayət olunarsa, milli-tarixi xarakterli dərs materialı məşğələlərin müxtəlif növlərində, optimal təşkilində və məqsədyönlü qurulmasında düzgün planlaşdırılarsa, təlim prosesinin effektivliyinin artmasına səbəb olar və bunun nəticəsində gələcək “Musiqi” müəllimlərinin professionallığının təkmilləşdirilməsi baş verər. Nəticədə, tələbələrin "Musiqi" fənni üzrə bilik və bacarıqları inkişaf etməklə, onlarda bu fənnə maraq artar.

**Tədqiqatın metodoloji əsasını** milli və ümumbəşəri mədəni və mənəvi dəyərlər, Azərbaycan xalq və klassik bəstəkar musiqi nümunələri, orta ümumtəhsil, pedaqoji təmayüllü orta ixtisas və ali məktəblər haqqında dövlət qərarları, Azərbaycan Respublikasının Təhsil Qanunu, klassik Azərbaycan, Rus və Avropa maarifçilərinin əsərləri, problemlə əlaqədar respublika miqyasındakı mövcud olan tədris ocaqlarındakı qabaqcıl iş təcrübəsi təşkil edir.

Tədqiqatın məqsədi müvəffəqiyyətlə həyata keçirmək və irəli sürülmüş fərziyyəni əsaslandırmaq üçün aşağıda göstərilən **vəzifələri** həll etmək zəruridir:

- musiqi müəllimlərinin professional hazırlığının mahiyyəti və məzmununu müəyyənləşdirmək;
- Musiqi müəllimlərinin professional hazırlığının müasir vəziyyətini analiz etmək;
- Problemlə əlaqədar orta ümumtəhsil, pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdəki vəziyyəti və qabaqcıl iş təcrübəsini öyrənmək;
- İnteraktiv metodlardan istifadə baxımından orta ümumtəhsil məktəblərində "Musiqi" dərslərinin imkanlarını üzə çıxarmaq;
- Pedaqoji eksperiment vasitəsilə, orta ümumtəhsil, orta ixtisas məktəblərində problemi müqayisə etmək.

Tədqiqat prosesində aşağıdakı **metodlardan** istifadə olunmuşdur:

**Nəzəri təhlil.** Problemlə əlaqədar pedaqoji, metodik, psixoloji ədəbiyyat öyrənilib təhlili edilmişdir.

**Müşahidə**. Respublikanın 20-yə qədər ümumtəhsil, 2 pedaqoji təmayüllü orta ixtisas məktəblərində musiqi dərsləri dinlənilmiş və təhlil edilmişdir.

**Müsahibə**. Yuxarıda qeyd olunmuş məktəblərdə qabaqcıl müəllimlərlə problemlə əlaqədar müsahibə və dialoq aparılmışdır.

**Anket sorğusu**. Orta ümumtəhsil, pedaqoji təmayüllü məktəblərdə 30 müəllimdən və 300 şagird və tələblərdən anketlə yazılı cavablar toplanılmışdır.

**Pedaqoji eksperiment**. Orta ümumtəhsil, orta ixtisas məktəblərində üç mərhələdə eksperiment aparılmışdır.

**Statistik metod.** Öyrənilmiş, eləcə də irəli sürülmüş fikirlərlə bağlı əldə olunmuş nəticələr hesablanaraq cədvəl formasına salınmış və ümumiləşdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, orta ümumtəhsil, pedaqoji təmayüllü orta ixtisas məktəblərdə problemlə əlaqədar interaktiv müasir təlim metodları, "Musiqi" fənninin digər fənlərlə və əksinə inteqrasiyasının istifadə xüsusiyyətləri, şagirdlərə mənimsəniləcək bilik, bacarıq və vərdişlər təcrübi təlim və eksperimental yolla əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.**

"Musiqi" fənninin tədrisi ilə əlaqədar müəllif tərəfindən təqdim edilmiş bilik, bacarıq və vərdişlər sistemini, məsləhət görülmüş inteqrativ və

digər müasir təlim metodlarından, inteqrasiya üsullarından araşdırdığımız problemə yaxın digər fənlərlə əlaqədar tədqiqatlarda istifadə etmək olar.

**Tədqiqatın praktik əhəmiyyəti.**

Tədqiqatdan alınan nəticələrdən aşağıdakı istiqamətlərdə istifadə etmək olar:

- İbtidai siniflərdə "Musiqi" tədrisinin səmərəliliyinin yüksəlməsində;
- İbtidai sinif müəllimləri və pedaqoji təmayüllü orta ixtisas məktəblərdə müvafiq fakültələrdə oxuyan tələbələr üçün metodik ədəbiyyatın hazırlanmasında;
- İbtidai siniflərdə dərs deyən müəllimlərinin ixtisasartırma kurslarının proqramlarının hazırlanmasında.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Pedaqoji təmayüllü orta ixtisas məktəblərinin ibtidai sinif müəllimləri hazırlayan fakültələrdə "Musiqi" fənninin tədrisinin nəzəri məsələlərinin əsaslandırılması;
2. Pedaqoji təmayüllü orta ixtisas məktəblərində "Musiqi" fənninin tədrisinin praktik məsələlərinin əsaslandırılması;
3. Musiqi üzrə fənlərin tədrisinin nəzəri-praktik problemlərinin həllinin tələbələrin və orta məktəb şagirdlərinin bacarıqlarının keyfiyyətinin yüksəlməsinə təsiri;
4. Yeni təlim metodlarının və inteqrasiya üsullarından istifadənin gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığına təsiri.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiya müəllifinin ideyaları respublika elmi-praktik konfransında səslənmiş, Təhsil Problemləri İnstitutunun "Elmi əsərlər"ində, "Musiqi dünyası", "Azərbaycan məktəbi" jurnallarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 2 fəsildən, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, fərziyyəsi, vəzifələri, metodları, mənbələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiya və müdafiəyə təqdim olunan başlıca müddəalar verilmişdir.

**"İbtidai siniflərdə "Musiqi" fənni üzrə müəllim hazırlığı pedaqoji-psixoloji problem kimi"** adlanan I fəslində tədqiq olunan problemin mahiyyəti, ona münasibət, tədqiqatçılar tərəfindən onun mənalandırılması və işlənmə səviyyəsi şərh olunmuşdur.

Bu fəsil üç yarımfəsildən ibarətdir. "**Musiqi təlimi və tərbiyəsinin ümumi məsələləri**" adlanan birinci yarımfəsildə qeyd olunur ki, incəsənət fənlərinin məktəbdə tədrisi bir çox səbəblərdən, o cümlədən musiqi pedaqogikasının nəzəri-praktik əsaslarının necə elmi surətdə işləməsindən, proqram və dərsliklərin yaradılması səviyyəsindən, müəllimin fənni hansı səviyyədə tədris etməsindən, gələcək müəllimlərin hazırlıq dərəcəsindən asılıdır. Bu yarımfəsildə pedaqoji təmayüllü orta ixtisas məktəblərində oxuyan gələcək müəllimlərin qarşısında üç əsas pedaqoji vəzifələr qoyulur:

1. Şagirdlərdə musiqiyə marağı formalaşdırmaq və onu inkişaf etdirmək;
2. Musiqi ilə əlaqədar yaradıcı fikir söyləmək bacarığını inkişaf etdirmək;
3. Şagirdlərdə ifadəli ifaçılıq vərdişləri aşılamaq.

Bununla bərabər, dissertasiyanın bu bölümündə gələcək ibtidai siniflərdə "Musiqi" fənnini tədris edəcək müəllimə bu məşğələləri yaradıcı təşkil etməsi üçün aşağıdakı tərkib hissələrin tətbiqinə diqqət yetirməsi tövsiyə olunur:

– şagirdlərdə sərbəst təxəyyülün formalaşdırılmasına cəhd göstərilməsi;
– musiqiyə sərbəst surətdə münasibət göstərə bilmək;
– musiqi alətlərində improvizasiya etmək.

Qeyd olunan tövsiyələr nəticəsində gələcək musiqi müəllimlərinin həyata keçirəcəkləri musiqi məşğələlərinin yaradıcı xarakteri də aşağıdakı kimi aydınlaşdırılmışdır:

1) Şagirdlərin təfəkkürünün fəallaşdırılmasına yönəlmiş metodların seçilməsi;
2) "Oxşarlıq və fərqlilik" metodik prinsipinin tətbiq edilməsi;
3) Yeni, əvvəlki və sonrakı musiqi materialları arasında əlaqələrin yaradılması;
4) Musiqi dərslərinin müxtəlif şəkillərdə qurulması.

Bu yarımfəsildə musiqi təliminin məqsədləri musiqi-estetik, pedaqoji-psixoloji baxımlarından əsaslandırılır.

Musiqi-estetik baxımından musiqi təliminin məqsədi belə müəyyən edilmişdir:

– Musiqi incəsənəti – sosial hadisə olub, böyüməkdə olan gənc nəslin inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır;

– Musiqi mədəniyyətinin məzmununun yaradıcı əsasını klassik musiqi, xalq incəsənət nümunələri və müasir musiqi təşkil edir.

Müasir musiqi pedaqogikasında musiqi təliminin son məhsulunun, nəticəsinin musiqi mədəniyyətinin formalaşdırılması olduğundan və bu prosesdə qavrama, emosionallıq kimi psixoloji anlayışlardan istifadə olunduğu üçün musiqi təliminin məqsədi də pedaqoji baxımından vəhdət şəklində əsaslandırılmalıdır.

Belə ki, müasir şagirdin (tələbənin) psixi inkişafının xüsusiyyətlərinin musiqi incəsənətinin xüsusiyyətlərini musiqi incəsənətinin inkişaf xüsusiyyətləri ilə müqayisə etsək, onda bir neçə prinsipial müddəalar formalaşdırmaq mümkündür:

– Şəxsiyyətin sosial tələbi haqqındakı psixoloji anlayış, musiqi incəsənətində ictimai faktorun rolu haqqında musiqi-estetik anlayışda olduğu kimi, pedaqoji, psixoloji və musiqi elmlərinin vahidliyini əks etdirir;

– Müasir psixologiya musiqinin emosional qavranılmasını təfəkkürlə vəhdətlə götürür;

– Emosionallıq və şüurluluğun vəhdəti musiqi incəsənətinin əsasını təşkil edir;

– Uşaq şəxsiyyətinin inkişafında emosiyalar onların həyatında hadisələrin dəyərləndirilməsi kimi büruzə verir.

Musiqidə də müxtəlif emosiyalar ifadə olunurlar. Bu emosiyalar yaradılan əsərdə sənətkarın həyati hadisələrə münasibətini, onun ideya mövqeyini ifadə edirlər.

Musiqiyə, estetik zövqə tələbatın inkişafı musiqinin tərbiyəvi əhəmiyyəti ilə sıx əlaqədə olub insanın psixikasına öz təsirini göstərir.

I fəslin birinci yarımfəsli belə bir sonluqla bitir. “Təəssüflər olsun ki, pedaqoji təmayüllü orta ixtisas məktəblərində, yəni bu fənn üçün ayrılan saatlar, semestrlər imkan vermir ki, adı çəkilən fənnin tədrisi üçün tələbələr tam hazırlıqlı olsunlar. Belə ki, orta ixtisas məktəblərində bu fənlə əlaqədar ayrılan 4 semestr gələcək müəllim hazırlığı üçün heç də kifayət etmir. Digər tərəfdən ibtidai sinif müəllimləri hazırlayan tədris ocaqlarına tələbə qəbulu zamanı onların musiqi üzrə hazırlıq dərəcələri nəzərə alınmır.

“**İbtidai siniflər üçün “Musiqi” müəlliminin hazırlığına və fənnin tədrisinə verilən tələblər**” adlanan I fəslin ikinci yarımfəslində müəllim hazırlığına verilən tələblər aşağıda göstərildiyi kimi öz əksini tapır:

– pedaqogikanın ümumi məsələləri;

– didaktika (təhsilin nəzəriyyəsi və fənnin təliminin metodikasının mənimsənilməsi);

– məktəb və təhsilin idarə edilməsi və rəhbərlik sahəsində hazırlıq;

– nəzəri və praktik hazırlığın vahidliyi.

Deməli, pedaqoji təcrübə müəllim hazırlığının əsas tərkib hissəsi hesab oluna bilər.

Pedaqoji təmayüllü orta ixtisas məktəblərində pedaqoji təcrübə IV kursun VII semestrində 30 saat müddətində aparılır. Bu təcrübə dövründə hər bir tələbə təkcə “Musiqi” fənni üzrə 2 saat açıq dərs verməlidirlər. Bu yarımfəsildə pedaqoji təcrübənin əsas vəzifələri aşağıdakı kimi göstərilir:

– pedaqoji-psixoloji və ixtisas fənlərinin təlimi prosesində qazanılmış nəzəri biliklərin konkret məsələlərin həllində tətbiq etməyi öyrətmək;

– gələcək müəllimlərdə peşə fəaliyyəti tərbiyə etmək, pedaqoji-psixoloji bilik, bacarıq və vərdişlərinin peşənin keyfiyyətinin inkişafına təsirinə nail olmaq;

– qlobal təcrübənin öyrənilməsinə və bir təcrübənin dərsdə istifadəsinə nail olmaq;

– peşəsinə, uşaqlara dərin maraq, məhəbbət, öz fəaliyyətinə yaradıcı münasibət tərbiyə etmək;

– tələbələri təcrübi fəaliyyətə alışdırmaq, peşə bacarığını və tərbiyə işlərinin metodikasının yiyələnməsinə nail olmaq;

– pedaqoji-metodik fəaliyyətə yaradıcı və tədqiqatçılıq münasibətlərini aşılamaq, tələbələrdə fəaliyyətlərinin nəticələrini təhlil etmək vərdişi yaratmaq.

Qeyd olunan yarımfəsildə belə bir nəticəyə gəlinir ki, təcrübə dərslərini keçmək üçün tələbələr həm musiqi alətində çala bilməli, vokal-xor vərdişlərinə yiyələnməli, not savadına malik olmalı, mahnılara dirijorluq edə bilməli, eyni zamanda “Musiqi tədrisi metodikasından baş çıxarmalıdır. Əks təqdirdə ibtidai təhsil pilləsində “Musiqi” fənnini keyfiyyətli, eyni zamanda Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş “Musiqi kurikulumu”nun tələblərinə uyğun tədris etmək mümkün deyildir.

Bu yarımfəsildə eyni zamanda pedaqoji təmayüllü orta ixtisas məktəb tələbələrinin yaş xüsusiyyətləri, “Musiqi” fənni üzrə məktəb təcrübə-

sində iştirak edən tələbələrin bilik, bacarıq və vərdişlərinin siyahısı, eyni zamanda I-IV siniflərdə qeyd olunan fənnin tədrisinin təşkilində müəllim hazırlığına verilən tələblər öz əksini tapmışdır.

"**Problemin elmi-metodik ədəbiyyatda, dərsliklərdə və proqramlarda qoyuluşu**" adlanan I fəslin üçüncü yarımfəslində "kurikulum" terminin mənası və yaranması ilə əlaqədar qısa tarixi məlumat, o cümlədən onun Azərbaycanda tətbiqi vəziyyəti ilə əlaqədar elmi məlumatlar verilir. Respublikamızda artıq 2008-ci ildən məktəblərdə tətbiq olunan "Musiqi kurikulumu"na uyğun tədqiqat materiallarına uyğun olaraq aşağıda göstərilən cəhətlər xüsusi əhəmiyyət kəsb edir:

a) fəyönümlü kurikulumda elmi təmayül üstünlük təşkil edir;

b) fənnyönümlü kurikulumda biliklərin həcmi daha geniş olur;

c) fənnyönümlü kurikulumda inteqrativlik daha geniş istifadə oluna bilir.

d) fənnyönümlü kurikulumda biliklərlə bərabər onların tətbiqinə, yeni biliklərin bacarıq və vərdişlərə çevrilməsinə xüsusi diqqət yetirilir;

e) şagirdlərin mənimsədikləri biliklər onların yaş xüsusiyyətlərinə uyğun gəlir.

Bu yarımfəsildə pedaqoq-alim Ə.Abbasovun kurikulumla əlaqədar "Kurikulum pedaqoji anlayış kimi" vəsaiti, 2006-cı ildə Təhsil Nazirliyi tərəfindən çap olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin kurikulumu" adlı vəsaitdə 2005-ci ildə orta ixtisas məktəbləri üçün "Musiqi və onun tədrisi metodikası" fənni üzrə proqram, 2005-ci ildə yenə orta ixtisas məktəbləri üçün Y.Paşayevanın alternativ olaraq yaratdığı və çap etdirdiyi "Musiqi tədrisinin metodikası" fənni üçün proqram analiz olunur.

Yarımfəsildə 1984-cü ildə çap olunmuş "Azərbaycan Sovet Musiqi Ədəbiyyatı" (müəlliflər S.Qasımova və N.Bağırov), "Bəstəkarlar haqqında ön söz" (müəllifi R.Zöhrabovdur), "20-ci əsr Azərbaycan musiqi ədəbiyyatı" (müəlliflər O.Rəcəbov və O.İmanovadır), 2011-ci ildə çap olunmuş "Azərbaycan bəstəkarlarının yaradıcılığı" (müəlliflər F.Bədəlbəyli, O.Rəcəbov, Ş.Həsənova, Y.Axundova) kimi kitabların analizi öz əksini tapmışdır.

Problemlə əlaqədar yazılmış doktorluq, dissertasiyalarından M.Dadaşovanın "Fortepiano sinfində tələblərin musiqi bilik, bacarıq və vərdişlərinin formalaşdırılması üzrə işin sistemi" (pedaqoji ali məktəblərin materialları əsasında), S.Əsgərovanın "Azərbaycan ümumtəhsil məktəbləri musiqi müəlliminin professional hazırlığının elmi-metodik əsasları" elmi-tədqiqat işləri də dissertasiyada problem baxımından araşdırılır.

Tədqiq olunan problemə uyğun gələn və ya yaxınlığı olan A.Hüseynovun “Ali Pedaqoji məktəblərdə təsviri incəsənət müəllimlərinin peşə hazırlığının təkmilləşdirilməsi yolları”, M.Kazımovun “Orta peşə ixtisas təhsilinin təkmilləşdirilməsi istiqamətləri”, A.Əliyevanın “İnteraktiv metodlardan istifadə təlimi rus dilində olan məktəblərdə Azərbaycan dili tədrisinin səmərəliliyinin artırmağın vasitəsi kimi” adlanan namizədlik dissertasiyaların araşdırmaları da üçüncü yarımfəslində öz əksini tapmışdır. “İbtidai məktəb və məktəbəqədər tərbiyə” jurnalında çap olunmuş Ç.Tamoyevin “Pedaqoji təcrübənin aparılması haqqında” məqaləsində də müəllim hazırlığı probleminə toxunulmuşdur ki, burada pedaqoji təcrübənin aparılması qaydalarından və üsullarından “Musiqi” fənni üzrə pedaqoji sınaq dərslərinin hazırlanmasında istifadə etmək mümkündür”.

Üçüncü yarımfəsillə əlaqədar aparılan araşdırmalardan belə nəticələrə gəlinmişdir:

– pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdə musiqi müəllimi hazırlanması probleminə aid elmi-metodik ədəbiyyat azlıq təşkil edir;

– orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimlərinin hazırlığına orta ixtisas və ali məktəblərdə az vaxt ayrıldığı üçün onlar bu fənni tədris etməyə tam hazır olmurlar;

– ibtidai sinif müəllimi peşəsi üzrə qəbul imtahanlarında qabiliyyət imtahanlarının əlavə edilməsi məqsədə uyğundur;

– ölkəmizdə ibtidai siniflərdə “Musiqi” üzrə kasetlərin, disklərin, elektron dərsliklərinin olmaması bu fənnin tədrisini mümkünsüz edir;

– Təhsil Nazirliyinin təsdiq etdiyi “Musiqi” kurikulumunun, yeni “Musiqi” dərs vəsaitlərinin tələbləri ilə bu fənni tədris edəcək ibtidai sinif müəllimlərinin hazırlığı arasında böyük fərq vardır;

– pedaqoji təmayüllü orta ixtisas məktəblərində ibtidai sinif müəllimləri ixtisasında oxuyan tələbələrin hər birinə həftədə bir saat olmaqla və cəmi 1 semestr (30 saat) fortepiano üzrə dərs keçirilir ki, bu müddətdə adı çəkilən musiqi alətində mahnıları müşayiət etmək, musiqi əsərlərini çalmaq bacarıqlarını əldə etmək mümkün deyildir.

“İbtidai siniflərdə “Musiqi kurikulumu”nun tətbiqi ilə əlaqədar tələbələrin professional hazırlığının sistemi” adlanan II fəsil beş yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil “**Müəllimin şagirdə aşılayacağı bilik, bacarıq və vərdişlər sistemi**” adlanır.

Musiqi kurikulumunun tələblərinə uyğun olaraq ümumtəhsil məktəblərində elementar və konkret biliklər deyil, musiqi incəsənətinin qanunauyğunluqları ilə əlaqədar ümumiləşdirilmiş biliklərin verilməsi nəzərdə tutulur. Bu baxımdan ümumiləşdirilmiş biliklə elə birinci sinifdən başlayaraq sistemlə və dərsin məzmununa, mövzulara uyğun olaraq verilməlidir.

"Musiqi" fənnində istifadə edilən biliklər: konkret musiqi əsərlərinin qavranılmasının əsasını təşkil edir; şagirdlərə musiqi incəsənətindəki hadisələrin müxtəlifliyini düzgün qiymətləndirməyə kömək edir; musiqinin ifadəli, savadlı və şüurlu ifa olunmasına kömək edir, bir sözlə musiqi bilikləri fənnin məzmununun nəzəri əsası kimi fənnin tədrisi prosesində fəal iştirak edir.

Musiqinin başa düşünülməsinin əsası kimi iki bilik səviyyəsi nəzərdə tutulur:

1. Musiqi incəsənətinin tam anlayışlarının formalaşdırılması üzrə biliklər;
2. Konkret musiqi əsərlərinin qavranılmasında "Musiqini müşayiət etməyə" kömək edən biliklər.

Bu yarımfəsildə qeyd olunur ki, təlimin məzmununu təyin etmək üçün hansı biliklərin əsas, yaxud ümumiləşdirilmiş olmasını bilmək çox vacibdir.

Qeyd olunur ki, əsas biliklər – musiqi incəsənətinin ümumi hadisələrini əks etdirən, xüsusi biliklərsə – əsas biliklərin tərkibinə daxil edilən biliklər hesab olunur.

Xüsusi biliklərə aiddir:

– musiqi dilinin müxtəlif konkret elementar bilikləri;
– bəstəkarlar haqqında bioqrafik məlumatlar;
– əsərlərin yaranma tarixi və analizi;
– notla əlaqədar savadlar və s.

Yarımfəsildə biliklərdə əlaqədar belə nəticəyə gəlinir: əsas musiqi biliklərlə xüsusi biliklər vəhdətdə götürüldükdə musiqi təlimi prosesinin məzmunu daha dəqiq və tam şəkildə olur.

Bu yarımfəsildə qeyd olunur ki, şagirdlərin əldə etdikləri bilikləri qavrama prosesində tətbiq edə bilmək qabiliyyəti musiqi bacarıqlarının formalaşmasında özünü göstərir.

Musiqi bacarıqlarının formalaşması özünəməxsus qaydada həyata keçirilir və burada üç mərhələ özünü göstərir:

1. Bacarıqların formalaşdırılması üçün şagirdlər tərəfindən musiqi təcrübəsinin toplanması;

2. Biliklərə daxil olma (qavrama vasitəsilə);

3. Möhkəmlənmə və dərinləşdirmə ilə bacarıqların formalaşdırılmasının sonrakı prosesi.

Yarımfəsildə əsas musiqi bacarıqları kimi aşağıdakılar göstərilir: 1) musiqi dinləmə; 2) mahnı oxuma; 3) sadə uşaq musiqi alətlərində çalmaq; 4) musiqi biliklərinin tətbiqi; 5) musiqili-ritmik hərəkətlərdə iştirak etmə.

Musiqi vərdişləri – təlim prosesində şagirdlərin musiqi fəaliyyətləri ilə bilavasitə əlaqədə olur və musiqi ifaçılığının müəyyən priyomlarında büruzə verir. Dissertasiyada qeyd olunur ki, təcrübəçi müəllim məktəblərə aşağıdakı musiqi vərdişlərini aşılamalıdırlar:

1. Vokal-xor vərdişləri (unison və çoxsəsli notla və notsuz oxumaq);

2. Musiqili-ritmik hərəkət vərdişi (musiqinin xarakterinə uyğun hərəkətlərin sərbəst həyata keçirilməsi);

3. Uşaq musiqi alətlərində çalmaq vərdişi (ksilofon, metallofon, uşaq pianosu, zərb alətləri və s.)

4. Dinlənilmiş məlum və qeyri-məlum musiqi əsərləri haqqında sərbəst fikir söyləmək, söz demək vərdişi;

5. Yüngül və ciddi musiqi əsərlərini dinləyə bilmək vərdişi.

II fəslin ikinci yarımfəsli “**Musiqi təliminin metodları. Ənənəvi və müasir metodlarının müqayisəli təhlili**” adlanır.

Metod (yunanca – nəyəsə yol deməkdir) – müəyyən fəaliyyət sahəsində məqsədə nail olmaq üçün yol deməkdir. Didaktlar təlimin metodlarını iki qrupa bölürlər:

1. Məlumat verici-inkişaf etdirici;

2. Evristik metodlar.

Musiqi təlimi prosesində 3 əsas metodu göstərmək olar: a) musiqi ümumiləşdirmə metodu; b) irəliyə getmək və geri qayıtmaq metodu; c) emosional dramaturji metod.

Bunlarla bərabər bu fəsildə XX əsrin sonunda geniş istifadə olunan “fəal təlim” (inteqrativ) və XXI əsrin əvvəllərində geniş yayılan “müasir təlim metodu” sxem şəklində müqayisəli öz əksini belə tapır.

| İnteraktiv metodlar | Müasir təlim metodları |
|---|---|
| 1. Rollu oyun<br>2. Debatlar<br>3. Yazılı debatlar<br>4. İdeyalar xalisi<br>5. Təqdimat (prezentasiya)<br>6. Qərarlar adası<br>7. Sənədlərlə iş<br>8. Vəziyyət üzrə praktikum<br>9. Qar topası<br>10. Esse<br>11. Sosioloji tədqiqat və s. | 1. İnsert<br>2. Bibo<br>3. Beyin həmləsi<br>4. İstiqamətləndirilmiş mühazirə<br>5. Klaster<br>6. Ziqzaq<br>7. Dəyirmi masa<br>8. Konseptual cədvəl<br>9. T – sxemlər<br>10. Semantik əlaqələrin təhlili<br>11. Venn diaqramı<br>12. İkihissəli gündəlik və s. |

Bu yarımfəsildə "İnteraktiv" və "müasir təlim" metodlarından musiqi təlimi prosesində istifadə imkanları göstərilmişdir. Bu yarımfəslin axırında belə bir nəticəyə gəlmək mümkün olmuşdur: "Qeyd olunan metodları ayrı-ayrı tətbiq etməklə bərabər, onlardan kompleks şəklində də istifadə etmək mümkündür."

II fəslin üçüncü yarımfəsli "**Musiqi" fənninin fəndaxili və fənlərarası inteqrasiyası**" adlanır. Milli Kurikulumun reallaşmasına xidmət edən beş funksiyalardan ikisi belədir:

– ümumi təhsilin pillələri və bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;

– təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunmasını, şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılması.

İkinci funksiyada göstərilən "konsentrik prinsip" ideyasının özü də fənn daxili şaquli inteqrasiya kimi qiymətləndirilə bilər. Şaquli inteqrasiya dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. İbtidai təhsil mərhələsində siniflərarası inteqrasiya;
2. 5-9-cu təhsil mərhələsində siniflərarası inteqrasiya;
3. İbtidai təhsil və əsas təhsil mərhələləri arasında inteqrasiya.

Bunu belə göstərmək olar:

<table>
<tr><td>9-cu sinif</td><td rowspan="5">Musiqi<br>əsas<br>təhsil<br>pilləsi</td></tr>
<tr><td>8-ci sinif</td></tr>
<tr><td>7-ci sinif</td></tr>
<tr><td>6-cı sinif</td></tr>
<tr><td>5-ci sinif</td></tr>
<tr><td>4-cü sinif</td><td rowspan="4">Musiqi<br>ibtidai<br>təhsil<br>pilləsi</td></tr>
<tr><td>3-cü sinif</td></tr>
<tr><td>2-ci sinif</td></tr>
<tr><td>1-ci sinif</td></tr>
</table>

a) Mövzular üzrə inteqrasiya;
b) Verilmiş bir biliyin konsentrik prinsipə uyğun yuxarı siniflərdə zənginləşdirilməsi;
c) Konsepsiyalar üzrə inteqrasiya;
d) Emosionallığın transferi vasitəsilə inteqrasiya;
e) Bacarıqlar arasında inteqrasiya;
f) Fəaliyyətlər arasında inteqrasiya .

İbtidai siniflərdə üfüqi fəndaxili inteqrasiyanın sxemini belə göstərmək olar:




İbtidai təhsil pilləsində “Musiqi” fənninin digər fənlərlə inteqrasiyasının belə bir sxemlə göstərmək olar:




Göstərilən sxemə uyğun olaraq qeyd olunan fənlər arasında aşağıdakı inteqrativ əlaqələr mümkündür: 1) mövzu baxımından; 2) müxtəlif biliklərlə əlaqədar; 3) müxtəlif anlayışlarla əlaqədar; 4) fəaliyyət növlərilə əlaqədar; 5) tarixi hadisələrlə əlaqədar (idman, marş, rəqs və s.)

Yuxarıda qeyd olunanlardan belə bir ümumiləşdirilmiş nəticəyə gəlmək mümkündür:

– İnteqrasiya bir tədqiqat mövzusu kimi respublikamızda hələ geniş mənada işlənilməmişdir;

– İnteqrasiya bir elmi məfhum kimi ümumtəhsil məktəblərində, pedaqoji təmayüllü orta ixtisas məktəblərinin "Musiqi" fənlərinin tədrisi prosesində lazım olan səviyyədə istifadə olunmur;

– Hal-hazırda ümumtəhsil, pedaqoji təmayüllü orta məktəblərində inteqrativ metodlarla işləməyə dair əsaslı təcrübə yoxdur;

– Ümumtəhsil məktəbləri üçün "Musiqi" müəllimi və "İbtidai sinif müəllimi" hazırlayan orta ixtisas məktəblərdə gələcək müəllimlərlə bu sahədə heç bir əsaslı iş görülmür və adları çəkilən tədris müəssisələrində olan tədris proqramlarında, dərslik və metodik vasitələrdə inteqrasiya məfhumu öz əksini tapmamışdır;

– Təhsil prosesində inteqrasiya pedaqoji elminin bir parçası kimi daha geniş mənada öz tədqiqini gözləyir.

II fəslin dördüncü yarımfəsli "**Musiqi" təliminin təşkili formaları**" adlanır. Yeni "Musiqi kurikulumu"nun tələblərinə görə pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslanmalıdır. Bu prosesdə

musiqi müəllimi əlaqələndirici, istiqamətverici, məsləhətçi rolunu oynayır. Şagirdlər isə tədqiqatçı, tərbiyə olunan, yaradıcı rolunda iştirak edirlər.

Neçə on illərdir ki, "Musiqi" fənninin proqramı mövzululuq prinsipinə əsaslandığına görə məktəblərimizdə əsasən aşağıdakı cədvəldə göstərilən dərs tiplərindən geniş istifadə olunur:

| **"Musiqi" fənni üzrə standart dərs tipləri** | **"Musiqi" fənni üzrə XX əsrin 80-ci illərində istifadə olunan dərs tipləri** |
|---|---|
| 1. Mövzuya giriş dərsləri; | 1. Konfrans dərsləri; |
| 2. Mövzunun dərinləşdirilməsi dərsləri; | 2. Seminar dərsləri; |
| 3. Mövzunun yüngülləşdirilməsi dərsləri | 3. Müzakirə dərsləri; |
| 4. Yekun konsert dərsləri. | 4. Ekskursiya dərsləri; |

Bu yarımfəsildə cədvəldə qeyd olunan dərs formaları müqayisəli şəkildə təhlil olunur və onların məktəb təcrübəsində imkanları açıqlanır.

II fəslin sonuncu beşinci yarımfəsli **"Ənənəvi və müasir "Musiqi" dərsinin nümunələrinin müqayisəli təhlili və eksperiment**" adlanır. Bu yarımfəsildə XX əsrin ikinci yarısında Azərbaycanda geniş yayılmış ənənəvi dərslər və XXI əsrdə istifadə edilən yeni tipli dərslərin müqayisəli təhlili verilir. Məlum olduğu kimi ənənəvi dərs tiplərində əsasən "Mahnı oxuma", "Musiqi dinləmə" və "Not savadı" kimi bölmələrindən istifadə olunurdu. Ona görə bu cür tipli dərslərdə məktəblilərin bir şəxsiyyət kimi inkişaf etməsinə cəhd göstərilmişdi, dərslər ətraf aləmlə əlaqəli şəkildə tədris olunmurdu.

Bu mənada yarımfəsildə yeni "Musiqi kurikulumu"na əsaslanan müasir dərs tipləri də ənənəvi dərslərdən köklü surətdə fərqlənir. Bakı şəhərinin 12 və 238 №li məktəblərində (müəllimlər M.Həsənov, S.Babayeva) ənənəvi və müasir musiqi dərsləri "Qiymətləndirmə cədvəli"ndə göstərilən meyarlar üzrə yoxlamalar aparılmış və alınan nəticələr aşağıdakı kimi olmuşdur:

## Eksperimental sinifdə
## I sinif

| № | *Meyarlar* / *Qrup* | *I*<br>*20 şagird*<br>*(zəif)* | *II*<br>*20 şagird*<br>*(orta zəif)* | *III*<br>*20 şagird*<br>*(yaxşı)* | *IV*<br>*20 şagird*<br>*(əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini sadə ifadə edir. | 2 ş | 3 ş | 8 ş | 7 ş |
| 2. | Musiqi nümunələrini fərqləndirir. | 3 ş | 4 ş | 6 ş | 7 ş |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır | 3 ş | 3 ş | 8 ş | 6 ş |
| 4. | Mahnı melodiyalarını təmiz oxuyur | 4 ş | 2 ş | 7 ş | 7 ş |

## Kontrol sinifdə
## I sinif

| № | *Meyarlar* / *Qrup* | *I*<br>*20 şagird*<br>*(zəif)* | *II*<br>*20 şagird*<br>*(orta zəif)* | *III*<br>*20 şagird*<br>*(yaxşı)* | *IV*<br>*20 şagird*<br>*(əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini sadə ifadə edir. | 8 ş | 5 ş | 4 ş | 3 ş |
| 2. | Musiqi nümunələrini fərqləndirir. | 7 ş | 7 ş | 3 ş | 3 ş |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır | 6 ş | 7 ş | 4 ş | 3 ş |
| 4. | Mahnı melodiyalarını təmiz oxuyur | 6 ş | 6 ş | 5 ş | 3 ş |

**Eksperimental sinifdə**
**II sinif**

| № | *Meyarlar* / *Qrup* | *I* *20 şagird* *(zəif)* | *II* *20 şagird* *(orta zəif)* | *III* *20 şagird* *(yaxşı)* | *IV* *20 şagird* *(əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini ifadə edir. | 4 ş | 3 ş | 7 ş | 6 ş |
| 2. | Musiqi nümunələrini fərqləndirir. | 3 ş | 3 ş | 8 ş | 6 ş |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır. | 3 ş | 2 ş | 8 ş | 7 ş |
| 4. | Təqdimat edir. | 1 ş | 3 ş | 8 ş | 8 ş |

**Kontrol sinifdə**
**II sinif**

| № | *Meyarlar* / *Qrup* | *I* *20 şagird* *(zəif)* | *II* *20 şagird* *(orta zəif)* | *III* *20 şagird* *(yaxşı)* | *IV* *20 şagird* *(əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini ifadə edir. | 7 ş | 5 ş | 4 ş | 4 ş |
| 2. | Musiqi nümunələrini fərqləndirir. | 8 ş | 6 ş | 4 ş | 2 ş |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır. | 7 ş | 4 ş | 5 ş | 4 ş |
| 4. | Təqdimat edir. | 9 ş | 4 ş | 4 ş | 3 ş |

## Eksperimental sinifdə
## III sinif

| № | *Meyarlar* / *Qrup* | *I*<br>*20 şagird*<br>*(zəif)* | *II*<br>*20 şagird*<br>*(orta zəif)* | *III*<br>*20 şagird*<br>*(yaxşı)* | *IV*<br>*20 şagird*<br>*(əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini terminlərlə ifadə edir. | 3 ş | 4 ş | 9 ş | 4 ş |
| 2. | Oxuduğu melodiyanı notla ifa edir. | 2 ş | 5 ş | 8 ş | 5 ş |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır | 1 ş | 4 ş | 8 ş | 7 ş |
| 4. | İkisəsli xorda iştirak edir | 3 ş | 4 ş | 7 ş | 6 ş |

## Kontrol sinifdə
## III sinif

| № | *Meyarlar* / *Qrup* | *I*<br>*20 şagird*<br>*(zəif)* | *II*<br>*20 şagird*<br>*(orta zəif)* | *III*<br>*20 şagird*<br>*(yaxşı)* | *IV*<br>*20 şagird*<br>*(əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini terminlərlə ifadə edir. | 6 ş | 5 ş | 5 ş | 4 ş |
| 2. | Oxuduğu melodiyanı notla ifa edir. | 7 ş | 8 ş | 3 ş | 2 ş |
| 3. | Mövzu ilə əlaqədar nəticə çıxarır | 5 ş | 6 ş | 5 ş | 4 ş |
| 4. | İkisəsli xorda iştirak edir | 5 ş | 7 ş | 4 ş | 4 ş |

## Eksperimental sinifdə
## IV sinif

| № | *Meyarlar / Qrup* | *I 20 şagird (zəif)* | *II 20 şagird (orta zəif)* | *III 20 şagird (yaxşı)* | *IV 20 şagird (əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini musiqi ifadə vasitələrilə ifadə edir. | 4 ş | 4 ş | 8 ş | 4 ş |
| 2. | İkisəsli mahnıların hər bir səsini sər-bəst oxuyur. | 3 ş | 5 ş | 7 ş | 5 ş |
| 3. | Oxuduğu mahnıları improvizə edir. | 5 ş | 4 ş | 7 ş | 4 ş |
| 4. | Mövzularla əlaqə-dar təqdimat edir. | 6 ş | 3 ş | 6 ş | 5 ş |

## Kontrol sinifdə
## IV sinif

| № | *Meyarlar / Qrup* | *I 20 şagird (zəif)* | *II 20 şagird (orta zəif)* | *III 20 şagird (yaxşı)* | *IV 20 şagird (əla)* |
|---|---|---|---|---|---|
| 1. | Öz fikrini musiqi ifadə vasitələrilə ifadə edir. | 7 ş | 7 ş | 8 ş | 3 ş |
| 2. | İkisəsli mahnıların hər bir səsini sər-bəst oxuyur. | 6 ş | 7 ş | 7 ş | 3 ş |
| 3. | Oxuduğu mahnıları improvizə edir. | 8 ş | 5 ş | 7 ş | 3 ş |
| 4. | Mövzularla əlaqə-dar təqdimat edir. | 9 ş | 5ş | 6 ş | 3 ş |

Tələbələrlə aparılan pedaqoji eksperimentin qarşısında aşağıdakı vəzifələr dururdu: ibtidai siniflərdə "Musiqi" fənnini tədris edən müəllimlərin professional səviyyəsinin öyrənilməsi; "Musiqi" fənninə yaxın olan fənlərin qarşılıqlı əlaqəsi tələbələrin bilik, bacarıq və vərdişlərinə təsirinin öyrənilməsi; təlim prosesində milli, tarixi və fərdi yanaşmanın kompleks şəklində tətbiqinin imkanlarının öyrənilməsi; ibtidai sinif müəllimi hazırlayan fakültələrdə ortaya çıxmış pedaqoji imkan və yollarının, hazırlanmış təlim materiallarını, metodiki priyom və təkliflərinin öyrənilməsi.

Pedaqoji eksperiment bir neçə mərhələlərdə aparılmışdır: birinci mərhələdə (2007-2008-ci illər), yəni müəyyənləşdirici mərhələdə ibtidai siniflərdə şagirdlərin musiqi üzrə bilik və bacarıqlarının, eyni zamanda onlara bu fənni tədris edən müəllimlərin professional səviyyələri yoxlanılmışdır. Bu mərhələdə eyni zamanda məktəb təcrübəsində iştirak edən tələbələrin də bilik və bacarıqlarının səviyyələri test yolu ilə müəyyənləşdirilmişdir. İkinci mərhələdə (2009-2010-cu tədris ili) tələbələrin professional hazırlığının təkmilləşdirilməsinin müəyyən edilmiş yollan, dərs materialları, metodik üsullar aprobasiyadan keçirilmişdir.

Üçüncü mərhələdə (2010-2011-ci tədris ili), yəni formalaşdırıcı eksperiment zamanı tələbələrin musiqi üzrə bilik və bacarıqları sistemli şəkildə öyrənilmiş, həm də bunların dinamik inkişafı aydınlaşdırılaraq ümumi bir nəticəyə gəlinmişdir. Bütün bu deyilənlər aşağıdakı cədvəllərdə öz əksini belə tapmışdır:

***Cədvəl №1***

*Tələbələrin musiqi üzrə bilik və bacarıqlarının dinamik inkişafı (faizlərlə)*

| Qruplar | Yoxlama işlərinin sayı | Tələbələrin sayı | Tələbələrin yoxlama işlərinə cavabları | | |
|---|---|---|---|---|---|
| | | | Tam düzgün cavab T.D.C. | Düzgün tam olmayan cavab D.T.O.C | Düzgün olmayan cavab D.O.C. |
| Eksperimental | 1 | 25 | 37,5% | 45,8% | 16,7% |
| | 2 | 24 | 31,5% | 43,5% | 24% |
| | 3 | 22 | 27,4% | 38,5% | 34% |
| Kontrol | 1 | 25 | 35,6% | 51,1% | 13,3% |
| | 2 | 24 | 39,1% | 47,8% | 13,1% |
| | 3 | 23 | 34% | 51% | 15% |

Cədvəldən görünür ki, eksperimental qruplarda tələbələrin səviyyələri kontrol qrupları ilə müqayisədə daha uğurludur.

# NƏTİCƏ

1. Müstəqillik əldə etmiş bizim respublikamız üçün iqtisadiyyatın bütün sahələrində olduğu kimi pedaqoji kadrlarının, o cümlədən ibtidai siniflərdə "Musiqi" fənnini tədris edəcək müəllim kadrlarının hazırlanmasına diqqət artırılmalıdır. Şagirdlərin musiqi istedadının, qabiliyyətinin vaxtında təyin edilməsi bilavasitə fənni tədris edən müəllimin peşə hazırlığından bilavasitə asılıdır.

2. "Musiqi" fənnini tədris edən müəllimlərin pedaqoji hazırlığının artırılması üçün pedaqoji təmayüllü orta ixtisas məktəblərində musiqiyə aid fənlərin təliminin keyfiyyəti və onlara ayrılan saatların artırılması məqsədə uyğundur.

3. Elmi-pedaqoji, musiqi sənətinə dair ədəbiyyatın pedaqoji təmayüllü orta ixtisas məktəblərinin, orta ümumtəhsil məktəblərinin zəngin təcrübəsi göstərir ki, şagirdlərin və tələbələrin bilik, bacarıq, vərdişlərinin və qabiliyyətlərinin inkişaf etdirilməsi üçün müəyyən didaktik imkanlar vardır. Bu imkanların həyata keçməsində və müəllimin professional hazırlığının təkmilləşdirilməsində aşağıda göstərilən yollar məqsədəuyğun hesab oluna bilər:

- təlim prosesində kompleks şəklində tətbiq etmə;
- musiqiyə aid fənlərin qarşılıqlı inteqrasiya şəklində təlimi;
- tələbələrin musiqi ilə əlaqədar işlərinin daha çox praktik təlimi.

4. Azərbaycan ümumtəhsil məktəblərimizdə, pedaqoji təmayüllü orta ixtisas məktəblərdə "Musiqi" ilə əlaqədar dərslərin maraqlı keçməsi üçün müxtəlif metodlardan istifadə etmək məqsədə uyğundur. Bu baxımdan, hətta qabaqcıl müəllimlərimiz də ənənəvi metodlardan istifadə etməklə öz dərslərini maraqlı olmasına çalışırlar və çox hallarda buna nail ola bilmirlər. Bu hallan aradan qaldırmaq üçün müəllim interaktiv və digər müasir təlim metodlarından istifadə etməlidir.

5. İnteraktiv və digər müasir təlim metodlarından istifadə kombinə edilmiş dərslərin səmərəliliyini, şagirdlərin, tələbələrin musiqiyə olan maraqlarını artırır. Bunun nəticəsində tələbələr dərs materialım daha asan qavrayırlar, hətta təhsildə zəif nəticə göstərənlər belə fəallaşır, belə mövzuları diqqətlə öyrənməyə çalışırlar.

Tədqiqatın nəticələri göstərir ki, aşağıda qeyd olunanlar nəzərə alınarsa müəllim hazırlığının səmərəliliyini artırmaq olar:

- yeni biliklərin öyrədilməsinə, mənimsənilməsinə şəraitin yaradılması;

- öyrənilmiş biliklərin tətbiqinə şəraitin yaradılması;

- musiqi ilə əlaqədar praktik məşğələlərə daha çox diqqət verilməsi.

7. Məktəb təcrübəsində gələcək müəllimlərin öz bilik və bacarıqlarını dərsin təşkili prosesində interaktiv və digər yeni təlim metodlarından istifadə etməsi, tədrisin səmərəliliyinin yüksəlməsinə təsir göstərir, tələbənin təcrübəsini artırır və aşağıdakı keyfiyyətlərlə xarakterizə olunan bir mühit yaradır:

- musiqi dərslərində fəal mühit yaranır və bu mühit təcrübəçi müəllimin də fəallığını artırır;

- sinifdə aparılan elmi geoloqlar həm şagirdlərin, həm də təcrübəçi müəllimin mübahisə mədəniyyətinin inkişafına səbəb olur;

- şagirdlərdə yaranan məntiqi və yaradıcı təfəkkür, təxəyyül və tədqiqatçılıq vərdişləri eyni zamanda paralel olaraq onlara dərs deyən təcrübəçi müəllimi məcbur edir ki, o da deyilən keyfiyyətləri özündə inkişaf etdirir.

8. Musiqini tədris edəcək gələcək ibtidai sinif müəllimlərinin estetik tərbiyəsinin keyfiyyətinin artırılması onların konsert salonlarında təşkil olunmuş konsertlərə, opera-balet tamaşalarında iştirakının böyük əhəmiyyəti vardır.

Yuxarıda göstərilmiş nəticələrə uyğun olaraq aşağıdakı təklifləri irəlİ sürmək olar:

a) Azərbaycan Respublikasının Təhsil Qanununa əsaslanaraq pedaqoji kadrların, o cümlədən musiqi müəllimlərinin professionallıq səviyyəsini qaldırmaq lazımdır;

b) Müəllim hazırlığı ilə əlaqədar olaraq musiqi ilə əlaqədar orta ixtisas məktəblərdə bu fənnə ayrılan praktik saatların miqdarı artırılmalıdır.

c) Pedaqoji təmayüllü orta ixtisas məktəblərin ibtidai sinif müəllimi hazırlayan fakültələrində qəbul zamanı digər fənlərlə yanaşı musiqi qabiliyyətlərinin də səviyyəsinin yoxlanılması məqsədəuyğundur;

d) Pedaqoji təmayüllü orta ixtisas məktəblərinin ibtidai sinif müəllimi ixtisası ilə oxuyan tələbələrə oxuduqları müddətdə orta məktəb "Musiqi" fənninin məzmununun öyrədilməsi məqsədə uyğundur.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. "Musiqi təliminin məqsədinin musiqi-estetik baxımından əsaslandırılması. "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). №2, Bakı, 2011, səh.136-140.

2. "Musiqi təliminin didaktik problemləri, vəzifələri, məzmunu" "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). №3, Bakı, 2011, səh.206-212.

3. "Azərbaycan xalq rəqslərinin müəllim hazırlığında istifadə problemləri". Azərbaycan Respublikası Təhsil Nazirliyinin XVI Respublika elmi konfransında çıxış. Bakı, 22 dekabr 2011-ci il (Sertifikat).

4. "Musiqi təliminin məzmunu pedaqoji prosesin əsası kimi" "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). №1, Bakı, 2012, səh.206-212.

5. "İbtidai siniflərdə "Musiqi" fənnini tədris edəcək müəllimlərin hazırlığına verilən tələblər" "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). №2, Bakı, 2012, səh.151-155.

6. "Musiqi təliminin təşkili formaları" "Azərbaycan məktəbi" jurnalı, №3, Bakı, 2012, səh.69-73.

7. «Использование Азербайджанских народных танцев в различных формах музыкальной деятельности учащихся» журнал «В мире научных открытий» (проблемы науки и образования) №2. Красноярск, 2012, 301-309 стр.

**Севиндж Сардар гызы Алиева**

## Система по развитию подготовки учителей начальных классов на основе музыкального куррикулума


## РЕЗЮМЕ

Тема данной диссертации «**Система по развитию подготовки учителей начальных классов на основе музыкального куррикулума»,** состоящей из введения, двух глав, из восьми разделов, заключения и приложения.

I глава «**Подготовка учителей по «Музыке» начальных классов как педагогическая-психологическая проблема**» состоит из трех разделов. Первый раздел называется «**Общие принципы музыкального обучения и воспитания**». Второй раздел называется **«Требования к квалификации преподавателей и к преподавание предмета «Музыка» для начальных классов»** Третий раздел называется **«Становление проблемы в научно-методической литературы, учебников и в программах**».

II глава называется «**Система профессиональной подготовки студентов в связи с применением учебной программе "Музыка " в начальных классах»** и состоит из пяти разделов. Первый раздел второй главы называется «**Система знаний, умений и навыков, которые учитель дает студентам**». Второй раздел второй главы называется **«Методы обучения «Музыки». Сравнительный анализ традиционных и современных методов»**. Третий раздел второй главы называется **«Интра-дисциплинарная и междисциплинарная интеграция «Музыки»**. Четвертый раздел второй главы называется «**Формы организации и обучение «Музыки»**. Пятый раздел второй главы называется «**Сравнительный анализ и эксперимент образцов традиционных и современных уроков «Музыки».**

**Sevinj Sardar Aliyeva**

## System on development of training of primary classes teachers on the basis of the music curriculum

### SUMMARY

The theme of the dissertation, “**System on development of training of primary classes teachers on the basis of the music curriculum**”, consists of an introduction, two chapters, eight sections, conclusion and applications.

Chapter I named **“Training of teachers on “Music” of primary classes as a pedagogical-psychological problem”** consists of three sections. The first section is called **“General principles of musical education and upbringing”.** The second section is called **“Requirements on training of teachers of “Music” for primary classes and teaching of the subject**”. The third section is called “**Bringing up the problem in scientific-methodical literature, textbooks and programs**”.

Chapter II is called “**System of the professional training of students in connection with application of “Music Curriculum” in primary classes”** and consists of five sections. The first section of the second chapter is called “**System of knowledge, abilities and skills that teacher gives students**”. The second section of the second chapter is called “**Methods of “Music” teaching. Comparative analysis of traditional and modern methods**”. The third section of the second chapter is called “**Intra-disciplinary and interdisciplinary integration of “Music”**”**.** The fourth section of the second chapter is called **“Organisation forms of “Music” training**”. The fifth section of the second chapter is called “**Comparative analysis and experiment of samples of traditional and modern “Music”**”**.**

Чапа имзаланыб: 02.05.2013.
Формат: 60х84 1/16. Тираж: 100.

**«Мцтяръим» Няшриййат-Полиграфийа Мяркязи**
Бакы, Рясул Рза кцч., 125
тел./факс 596 21 44
**e-mail: mutarjim@mail.ru**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**ИМЕНИ У.ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**СЕВИНДЖ САРДАР гызы АЛИЕВА**

# СИСТЕМА ПО РАЗВИТИЮ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ НА ОСНОВЕ МУЗЫКАЛЬНОГО КУРРИКУЛУМА

5801.01 – Теория и методика обучения и воспитания
(Методика преподавания музыки)

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по педагогике

**Баку – 2013**